# Birinci xanım haqqında Söz...

## Və ya sözün məqamı...

**Mehriban Arif qızı Əliyeva. Onun haqqında Söz demək mənim üçün həmişə həm asan olub, həm də çətin. "Həmişə" sözünü ona görə işlədirəm ki, Mehriban xanımın ailəsinə, şəcərisinə, əslinə-soyuna yaxından bələdəm və bu nəcib Azərbaycan xanımının şərəfli həyat yolunu illərdir ki, hər kəs kimi izləyirəm. Elə buna görə də deyiləsi sözüm, çatdırmaq istədiyim məqamlar, bəlkə də bir kitaba çığmaz. Amma bir məsələ də var ki, ürəyimizdəki sözləri həmişə dilə gətirib, böyük auditoriyalarda səsləndirməyə məqam tapmırıq. Bəzən bu sözlər bir duaya dönüb, Tanrıya ünvanlanır. Bəzən bu sözlər mənim ruhumdam süzülüb ətrafıma işıq saçır. Söz axı təkcə səslənən deyil, həm də duyulandır. Onun da öz məqamı var. Məncə, bu gün Söz deməyin əsl məqamıdır. Məsuliyyətli və şərəfli bir Məqam... Bəlkə, elə buna görə də bu məqamda Peyğəmbərimiz Həzrəti Məhəmmədin sözləri yadıma düşür - "İnsanların ən yaxşısı yaxşılığa öyrənmiş şəxsdir". Ancaq vərdişə çevirə bilən, əməlinə və ömrünə qata bilən insan - insanların qəlbinə yol tapar...**

İlin ilk çərşənbəsində aldığımız xoş xəbər - Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin fərmanı ilə Mehriban xanım Əliyevanın birinci vitse-prezident seçilməsi cənab Prezidentin müdrik addımı, Mehriban xanımın Taleyinin məntiqi davamıdır. Fikirləşirəm ki, xeyirxahlığı həyat kredosuna, amalına və istəyinə çevirə bilən, elinə-obasına şərəf gətirən, ləyaqəti ilə örnək olmağı bacaranlardır seçilmişlər. Mədəniyyəti, səmimiyyəti və davranışı ilə hər zaman xalqının yanında olan, könüllərdə taxt-tac quran Mehriban xanım Əliyeva da belə böyüklüyə layiq görülən seçilmişlərdəndir. Və xalqımız əmindir ki, hər vaxt olduğu kimi Mehriban xanım Əliyeva bu məsuliyyətli və şərəfli işin də öhdəsindən uğurla gələcəkdir.

Bu yerdə çox sadə və müdrik bir həyat düsturunu xatırlamaq istəyirəm. Bu düsturun alqoritmi belədir - insan əməl toxumu səpməklə vərdiş biçir. Vərdiş əkməklə xasiyyət biçir. Xasiyyəti biçən İnsan Taleyini qazanır. Mehriban xanımın ilk səpdiyi toxum - Yaxşılıq olub. Beləcə,Yaxşılıq onun vərdişinə, vərdişi xasiyyətinə, xasiyyəti Taleyinə çevrilib. Və bütün bunlar, bu xüsusiyyətlər ona olan böyük inamın təməlidir.

Mehriban xanım həyatda həmişə seçilib. Məktəbdə oxuyanda da, məktəbi qızıl medalla bitirib ali təhsilini bir imtahanla qazananda da. O,qayğıkeş ana, gözəl qadın, diqqətli övlad, eləcə də düşdüyü ocağın ucalığını qoruya bilən, cəfakeş və mehriban gəlinidir. Mehriban xanım illərdir millət vəkili kimi xalqının bütün problemlərinə qucaq açan, körpədən yaşlıya qədər bağrına sıxıb öz istisi ilə onların dərdlərinə çarə edən, insanları dinləməyi bacaran, damlaların sükunətində təlatümü görməyə cəhd edə bilən müdrikliyə sahib olan ikinci bir prezident xanımı tanımıram. Mehriban xanım ona üz tutan, müraciət edən hər kəsin dərdinə-sərinə çarə etməyə çalışan bütöv və müdrik şəxsiyyətdir. O, çox böyük ürək sahibidir. Kim olursan ol, hansı mərtəbədə durursan dur, ürəyində mərhəmət, istəklərində xoş niyyət yoxsa, tarixdə özünə yer tuta bilməzsən. İnsanlara ehtiram göstərən, onlara münasibətində nəzakət ölçülərini gözləyən, böyüklərlə böyük, kiçiklərlə kiçik olmağı bacaran, qadınlığa baş ucalığı gətirən Mehriban xanım təfəkkür zənginliyi, düşüncə itiliyinə görə xalqı tərəfindən bu qədər sevilir və hər kəs onu öz doğması kimi qəbul edir və güvənir. Alicənablıq bütün insani keyfiyyətlərin önündə duran cəhətlərdəndir mənim aləmimdə. Mehriban xanım Əliyevanın qəlbindəki ümman sevgi dənizindən baxışlarına süzülən alicənablığı onun ətrafında olanların qəlbinə məhəbbət toxumu səpir. Onun yaşlılara, ağbirçək və ağsaqqallara ehtiramı əlbəttə ki, ailədən, gördüyü tərbiyədən irəli gəlir. O, iki böyük nəslin övladıdır. Sadəlik və xeyirxahlıq simvolu olan böyük yazıçımız Mir Cəlal Paşayevin və tanınmış qələm sahibi, böyük jurnalist Nəsir İmanquliyevin əlindən su içib Mehriban xanım. O, dünya miqyasında tanınmış akademikimiz, gözəl insan, böyük alim Arif Paşayevin və ilk qadın şərqşünas alimimiz Aida xanım İmanquliyevanın övladıdır.



Mehriban xanım düz 20 il ölməz liderimiz Heydər Əliyevin ocağında sevilən gəlin və onu anlayan, hər zaman yanında olan, qayğısına qalan övlad olub... 2004-cü ildən Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban xanımın fəaliyyəti Ulu Öndərin ruhuna hədsiz hörmət və əməllərinin davamıdır.Mehriban Əliyeva 700 minə yaxın insanı birləşdirən, Cənubi Qafqazın ən böyük partiyası olan Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Onun rəhbərlik etdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində son 13 il ərzində Azərbaycanda üç mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilmişdir.

Heydər Əliyev Fondu təkcə ölkəmizdə deyil, həm də xaricdə bir çox möhtəşəm layihələrə imzalar atıb. Mehriban xanımın adı bu gün Azərbaycanda deyil, onu sərhədlərindən çox-çox uzaqlarda çəkilir. Ona rəğbət bəsləyənlər, hörmət edənlər dünyanın nüfuzlu siyasətçiləri, məhşurlar, adi insanlardır. Təsadüfü deyil ki, Mehriban xanım eyni zamanda həm YUNESKO-nun , həm də İSESKO-nun xoş məramlı səfiridir. Onun xidmətləri sayəsində Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən multikultural ölkə kimi tanınır.

Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvü olan Mehriban xanım Azərbaycanın və dünyanın bir çox mötəbər idman tədbirlərinə imza atıb. 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunları dünya idman tarixinə düşən, Azərbaycan insanına qürur verən bir hadisə kimi yaddaşlarda qalıb. Təsadüfi deyil ki, 2015-ci ildə I Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeninə layiq görülüb. Bu il keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarının təşkili də Mehriban Əliyevaya həvalə edilib. Onun bu işi də uğurla həyata keçirəcəyinə əminik. Xalqımız yaxşını görə bilən, səmimiyyəti anlayan, əməyi qiymətləndirməyi bacarn xalqdır.

Mehriban Əliyeva mötəbərliyin ən uca zirvəsini fəth etmiş, o dövrdə də, bu gün də xeyirxahlığı dillər əzbəri olan babası Mir Cəlal Paşayevin yolunu insanlara diqqəti ilə, onların ən ağır anlarında ovutmağıyla, daha nurlu sabahlara inamı artırmağıyla davam etdirir. Biz bu gördüklərimizi dilə almaqdan, onları anlatmaqdan, gələcək nəslə çatdırmaqdan qürur duymalıyıq. Çünki əsl Azərbaycan qadını bütün zamanlarda ən məsul vəzifələrdə də, elə həyatda da ömür-gün yoldaşının yanında dəyanətli duruşuyla örnək sərgiləyib. Mehriban xanım Əliyeva bunu gündəlik həyatında, davranışlarında, ədəb-ərkanıyla qadınlığı göylərə ucaldaraq hər birimizə yaşadır. Mehriban xanım qədirbilənliyin örnəyidir. Onun qeyri-adi yanımcıl övlad olması, gənc ikən dünyasını dəyişmiş gözəllər-gözəl anası haqqında söylədiyi fikirlər, özünün analığı, nənəliyi, təəssübkeşliyi uca tutmaq bacarığı hər gün insanların gözləri önündə parlaqlığı görünən çalarlardandır. Onun xarakterindəki bu gözəl və ülvi xüsusiyyətlər insanların gözündən yayınmır.

Mehriban xanım həm də bizim üçün bir uğur simvoludur. Çox vaxt insanlar uğurlu şəxsiyyətlərin uğur düsturunun sirrini açmağa çalışırlar. Məncə, Mehriban xanımın misalında bu sirri açmağa ehtiyac yoxdur. Həqiqət göz qabağındadır. Mehriban xanımın özü bu sirri açır."Mənim ən böyük nailiyyətim mənim ailəmdir," - deyir. Onun üç gözəl övladı və beş nəvəsi fəxridir, fəxarətidir. Ölkəmizin Birinci Xanımının həyatı doğrudan da nümunədir. Buna görə hər bir azərbaycanlı Mehriban xanımla qürur duyur. Mən də bir Azərbaycan anası və ziyalısı kimi həm öz adımdan, həm də çalışdığım elm ocağındakı həmkarlarım adından Azərbaycan qadınlığına baş ucalığı gətirən əzizimiz Mehriban xanıma və onun ailəsinə bundan sonra da bir ömür boyu xoşbəxtlik, səadət, firavanlıq diləyərək, yeni vəzifəsində can sağlığı və nailiyyətlər arzu edirəm.

Bu gün bütün Azərbaycan xalqı prezidentimiz cənab İlham Əliyevin təyinatına ürəkdən sevinir və Mehriban xanıma uğurlar diləyir. Biz Azərbaycan anaları olaraq hər ocaqda onun istisini, qəlbinin hərarətini duyuruq. Qoy, üzümüzə gələn çərşənbələr, yeni illər həmişə belə xoş müjdəli, bahar təravətli, günəş hərarətli, sevgi, xeyirxahlıq və yaxşılıqla dolu olsun.

**Sözün qədrini bilən, sözün böyüklüyünü qiymətləndirən və verdiyi sözlərin ağası olan Mehriban xanıma deyəcəyim sözlər çox olsa da, bu gün bu qədərini deyə bildim...**

**Sona Çərkəz,**
**BDU-nun Humanitar fakültələr üzrə Rus dili kafedrasının baş müəllimi, şairə-publisist**



dal. t.-2017.-3 mart.-S.2.